## SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ və POLİMER MATERİALLARI İNSTİTUTU arasında

## KADR HAZIRLIĞI və ELMİ-TƏDQİQAT sahəsi üzrə fəaliyyətlərin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında

## ANLAŞMA MEMORANDUMU

**Sumqayıt şəhəri** "02" noyabr 2023-cü il

Bir tərəfdən, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qeyda alınmış və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "Sumqayıt Dövlət Universiteti" (bundan sonra "SDU" adlandırılacaqdır), rektoru Rüfət Əzizovun şəxsində, digər tərəfdən, Polimer Materialları İnstitutu, baş direktoru Bəxtiyar Məmmədovun şəxsində (bundan sonra "İnstitut"adlandırılacaqdır) kadr hazırlığı və elmi-tədqiqat üzrə fəaliyyətlərinin birgə həyata keçirilməsinə dair əməkdaşlıq haqqında bu Anlaşma Memorandumunu (bundan sonra "Memorandum" adlandırılacaqdır) imzalamaqla aşağıdakılar barədə razılığa gəldilər.

### MADDƏ 1. ÜMUMİ MÜDDƏALAR

1. Memorandumun məqsədi Tərəflərin kadr hazırlığı və elmi-tədqiqat üzrə fəaliyyətlər sahəsində ortaq məqsədlərə, təcrübəyə və xüsusiyyətlərə malik olmasını nəzərə alaraq səlahiyyətləri daxilində və aşağıda qeyd edilən fəaliyyət istiqamətləri üzrə əlaqə və münasibətlərin qurulması və inkişaf etdirilməsi, kadr hazırlığı və elmi-tədqiqat üzrə fəaliyyətlərin birgə həyata keçirilməsi, təkmilləşdirilməsi və qarşılıqlı maraq doğuran digər istiqamətlərdə əməkdaşlıq çərçivəsini müəyyən etməkdən ibarətdir.

1.2.Memorandum Tərəflər arasında əməkdaşlıq haqqında sənəd olub, onların görəcəyi işlər barədə əsas koordinasiya rolunu oynayır və Tərəflərə heç bir maliyyə öhdəliyi yaratmır.

1.3.Memorandum hər hansı üçüncü tərəfə münasibətdə hüquq və öhdəliklər yaratmır və Tərəflərin hər birinin mövcud və ya gələcəkdə iştrakçısı olduğu digər sənədlərdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

1.4.Tərəflərdən heç birinin digərinin adından istifadə etmək, digərini hər hansı fəaliyyəti həyata keçirməyə məcbur etmək, habelə digər Tərəfin səlahiyyətlərini mənimsəmək və ya onun razılığına əsaslanaraq digər Tərəfin öhdəsinə qoyulacaq razılaşmalar bağlamaq hüququ yoxdur.

## MADDƏ 2. ƏMƏKDAŞLIQ ÜZRƏ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2.1.Tərəflər arasında əməkdaşlıq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq onların fəaliyyət sahələri və səlahiyyətləri çərçivəsində olan məsələləri əhatə edir və aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

2.1.1.Tərəflərin əməkdaşları arasında qarşılıqlı təcrübə və fikir mübadiləsinin aparılması üçün uyğun mühitin formalaşdırılması;

2.1.2.Tərəflər arasında müvafiq kadr hazırlığı və elmi-tədqiqat sahəsində birgə fəaliyyət planının hazırlanması;

2.1.3.Tərəflərin tədqiqat və təlim üçün bir-birlərinin maddi və texniki resurslarından (kitabxana, elektron baza, internet resursları, laboratoriya və s.) istifadəsi üçün şərait yaradılması, o cümlədən bu resursların yenilənməsində qarşılıqlı dəstəyin göstərilməsi;

2.1.4.Tərəflərin qarşılıqlı maraq kəsb edən, o cümlədən uğur əldə etdiyi sahələrdə və mövzularda birgə seminarlar, kurslar, treninqlər, konfranslar, simpoziumlar, ustad dərsləri və digər tədbirlərin təşkil edilməsi;

2.1.5.Tərəflərin kadr hazırlığı və elmi-tədqiqat fəaliyyəti üzrə ölkədaxili və beynəlxalq lahiyə və proqramlarında birgə iştrakı;

2.1.6. Bir Tərəfin müəyyən sahələrdə və mövzularda daha yüksək uğur əldə etmiş əməkdaşlarının müvafiq tədqiqat işləri ilə bağlı digər Tərəfin əməkdaşlarına və ya təhsilalanlarına mentor olaraq təyin edilməsi;

2.1.7.Tərəflərin əməkdaşlarına və / və ya təhsilalanlarına düzgün və effektiv tədqiqat aparılması və elmi araşdırmaların yüksək səviyyədə həyata keçirilməsi yollarını aşılamaq üçün vaxtaşırı olaraq elmi-tədqiqat və akademik yazı metod və üsulları barədə birgə ödənişsiz seminarların və kursların təşkil edilməsi;

2.1.8.Tərəflərin əməkdaşların və / və ya təhsilalanlarının elmi-tədqiqat fəaliyyətlərinin stimullaşdırılması məqsədi ilə nüfuzlu beynəlxalq nəşrlərdə dərc edilmiş məqalələrə və digər elmi əsərlərə görə birgə mükafatların təyin edilməsi;

2.1.9.Tərəflərin əməkdaşlarının və / və ya təhsilalanlarının elmi-tədqiqat fəaliyyətlərində əldə etdikləri uğurların tanıdılmasına və bu tədqiqatların genişlədirilməsinə xüsusi şərait yaradılması və əlavə dəstək göstərilməsi;

2.1.10. Birgə magistr hazırlığının həyata keçirilməsi;

2.1.11.Tərəflərin doktorantlarının (fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi iddiaçıların) dissertasiya ilə bağlı tədqiqat işlərinin hər iki qurumda aparılması və onlara ikili elmi rəhbərlərin, həmçinin elmi məsləhətçilərin təyin olunması imkanlarının yaradılması;

2.1.12. Hər iki tərəfin əməkdaşlarının və / və ya təhsilalanlarının elmi-tədqiqat sahəsində fəaliyyətlərinin təşviq edilməsi məqsədi ilə müvafiq müsabiqələrin, yarışların, festivalların və s. təşkil edilməsi;

2.1.13.Tərəflərin əməkdaşları və / və ya təhsilalanları haqqında və onlar tərəfindən aparılan tədqiqatlara dair vahid elektron bazanın yaradılması;

2.1.14.Tərəflərin xarici təşkilatlarla elmi-tədqiqat əməkdaşlığının birgə inkişaf etdirilməsi;

2.1.15. “Elsevier” şirkətinin “SCOPUS” bazasında Memorandum imzalanan tarixədək yer alan, eləcə də bu tarixdən sonrakı dövrdə yer alacaq Tərəflərə aid bütün aidiyyəti məlumatların vahid olaraq universitetə aid məlumatlar kimi nəzərə alınması;

2.1.16.Əməkdaşlıq istiqamətlərinə uyğun olaraq qarşılıqlı şəkildə informasiya mübadiləsinin aparılması və məsləhətləşmələrin həyata keçirilməsi;

2.1.17. Birgə əməkdaşlıq çərçivəsində yaranmış birgə əqli mülkiyyət hüququnun müvafiq qanunvericilik çərçivəsində tənzimlənməsi;

2.1.18. Memorandum çərçivəsində əməkdaşlığı təşviq etmək və tənzimləmək məqsədi ilə müxtəlif istiqamətlər üzrə birgə işçi qrupların yaradılması;

2.1.19.Tərəflərin öz əməkdaşları və / və ya təhsilalanlarının elmi-tədqiqat fəaliyyətlərində əldə etdikləri uğurların sənaye və istehsalatda təcrübədən keçirilməsi və tətbiq edilməsinə müvafiq dəstək göstərilməsi.

2.2.Memorandum yuxarıda qeyd olunmayan əməkdaşlıq istiqamətləri üzrə birgə fəaliyyəti istisna etmir.

2.3. Əməkdaşlıq istiqamətləri üzrə konkret fəaliyyətin həyata keçirilməsinin forması, vaxtı və üsulları Tərəflərin qarşılıqlı yazılı razılığı ilə müəyyən edilir və dəyişdirilir.

2.4.Tərəflər ehtiyac yarandıqda əməkdaşlıq istiqamətləri üzrə birgə fəaliyyətin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının müvafiq sahələri tənzimləyən qanunvericiliyinə uyğun olaraq ayrı müqavilələr də bağlaya bilər.

## MADDƏ 3. ƏMƏKDAŞLIĞIN FORMALARI VƏ VASİTƏLƏRİ

3.1.Memorandum çərçivəsində Tərəflər Azərbaycan Respublikasının qanunvericilik aktlarına, tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq bərabərlik, şəffaflıq və qanunçuluq prinsiplərinə uyğun əməkdaşlıq edir.

3.2.Tərəflərin əməkdaşlığı heç bir halda onların nizamnamələrinə, fəaliyyət prinsiplərinə, Azərbaycan dövlətinin milli maraqlarına, dövlətçilik prinsiplərinə zidd ola bilməz.

3.3.Əməkdaşlığın nəticələrinin və ya onların müəyyən hissəsinin ictimailəşdirilməsi və KİV-də yayılması qaydası Tərəflərin qarşılıqlı yazılı razılığı ilə müəyyən edilir.

3.4.Tərəflər konkret məsələlərin həlli və məqsədlərə çatmaq üçün görüləcək işləri və tədbirləri birgə əlavə sənədləşmə ( protokol, müqavilə, saziş, plan-qrafik və s.) yolu ilə həyata keçirir.

3.5.Tərəflər Memoranduma qeyd olunan istiqamətlərdə əməkdaşlığın koordinasiya edilməsi məqsədilə əlaqələndirici məsul şəxs təyin edir.

3.6.Memorandumda nəzərdə tutulan fəaliyyətin həyata keçirilməsi zamanı Tərəflər qarşılıqlı razılıq əsasında müvafiq mövzu və sahələr üzrə təhlillərin və məsləhətləşmələrin aparılması, birgə işçi qruplarının yaradılması, məlumat və təcrübə mübadilələrinin, elmi konfransların, seminarların, görüşlərin təşkili, proqramların və tədqiqat layihələrinin əlaqələndirilməsi, habelə fəaliyyət istiqamətlərinə uyğun müəyyən edilən istənilən digər əməkdaşlıq vasitələrindən istifadə edə bilərlər.

## MADDƏ 4. KONFİDENSİALLIQ, FORS-MAJOR HALLAR VƏ MÜBAHİSƏLƏRİN HƏLLİ

4.1.Memorandumun şərtləri, ona edilən əlavə və dəyişikliklər, həmçinin Tərəflərin bu əməkdaşlıq çərçivəsində bir-birinə açıqladığı və ya əldə etdiyi məlumat və sənədlər məxfi (konfidensial) məlumatlar sayılır və Tərəflər həmin məlumatı qorumalı və digər Tərəfin qabaqcadan yazılı razılığı olmadan, həmçinin qanunla nəzərdə tutulan hallar istisna olmaqla onları yaymamalı və ya digər şəxslərə açıqlamamalıdır. Məxfi məlumatların yayılması və ya üçüncü şəxslərə açıqlanması ilə digər Tərəfə ziyan vuran Tərəf Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyır.

4.2.Fors-mojor halların təsiri ilə Tərəflər əməkdaşlıq fəaliyyəti üzrə fəaliyyət və tədbirlərin həyata keçirilməsini dayandıra bilərlər. Tərəflərin iradəsindən asılı olmayan, əvvəlcədən görə bilmədikləri və təsirinə mane ola bilmədikləri qarşısıalınmaz hallar fors-major hallar hesab edilir. Tərəflər fors-major hallar nəticəsində Memorandum üzrə öhdəliklərinin yerinə yetirilməməsi üçün biri digəri qarşısında məsuliyyət daşımır, o şərtlə ki, həmin Tərəf digər Tərəfə fors-major şəraitin yaranması barədə şərait yarandığı gündən 5 (beş) iş günü ərzində şəraitin yaranması və bunun Memorandum üzrə öhdəliklərinin yerinə yetirilməsinə təsiri barədə yazılı bildiriş göndərsin.

4.3. Memorandumun təfsiri, tətbiqi və icrası ilə bağlı yarana biləcək hər hansı fikir ayrılığı və ya mübahisəni Tərəflər danışıqlar, məsləhətləşmələr və / və ya mediasiya yolu ilə həll etməlidirlər. Əgər Tərəflər danışıqlar yolu ilə razılığa gələ bilmirlərsə, bu zaman Memorandumla bağlı yaranan hər hası mübahisə Azərbaycan Respublikasının qanunvericiliyi əsasında Azərbaycan Respublikasının səlahiyyətli məhkəmələri tərəfindən həll olunacaqdır.

## MADDƏ 5. MEMORANDUMUN ŞƏRTLƏRİNİN DƏYİŞDİRİLMƏSİ VƏ XİTAMI

5.1.Tərəflərin qarşılıqlı yazılı razılığı ilə Memoranduma əlavə və dəyişikliklər edilə bilər. Əlavə və dəyişikliklər Protokol formasında rəsmiləşdirilir və Memorandumun ayrılmaz tərkib hissəsi hesab edilir.

5.2. Memoranduma aşağıdakı hallarda və qaydada xitam verilə bilər:

5.2.1.Tərəflərin qarşılıqlı razılığı ilə;

5.2.2.Tərəflərdən biri digər Tərəfə 1 (bir) ay əvvəlcədən yazılı xəbərdarlıq verməklə birtərəfli qaydada;

5.2.3. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

5.3.Tərəflər arasında başqa razılaşma olmadıqda, Memorandumun vaxtından əvvəl xitamı, o anda davam edən layihə, proqram və ya fəaliyyətlərinə mane olmamalıdır.

## MADDƏ 6. YEKUN MÜDDƏALAR

6.1.Memorandum imzaladağı gündən qüvvəyə minir və 5 (beş) il müddətində qüvvədədir.

6.2.Tərəflərdən biri müddətin başa çatmasına ən azı 1 (bir) ay qalmış Memorandumu xitam etmək niyyəti barədə digər Tərəfə yazılı xəbərdarlıq verməzsə, onun qüvvəsi eyni şərtlərlə hər dəfə növbəti 5 (beş) il müddətinə uzadılmış hesab olunur.

6.3.Memorandum ilə tənzimlənməyən məsələlər Azərbayca Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir.

6.4. Memorandum hər biri eyni hüquqi qüvvəyə malik və Tərəflərin hər biri üçün 1 (bir) nüsxə olmaqla, Azərbaycan dilində tərtib edilmişdir.

| | |
|---|---|
| **SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ** | **POLİMER MATERİALLARI İNSTİTUTU** |
| **Rektor** ________ **R.ƏZİZOV** | **Baş direktor** ________ **B.MƏMMƏDOV** |
| "02" noyabr **2023-cü il** | "02" noyabr **2023-cü il** |